**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN NAXÇIVAN VƏ İRƏVAN BÖLGƏLƏRİNƏ ERMƏNİLƏRİN ƏRAZİ İDDİALARI

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçı: **Zamin Qasım oğlu Əliyev**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2022**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor
**Zəhmət Əbülfət oğlu Şahverdiyev**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, professor
**Havva İsa qızı Məmmədova**

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Elnur Həşim oğlu Kəlbizadə**

Tarix üzrə fəlsəfə doktoru
**Mehman Sərxan oğlu Şabanov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
tarix elmləri doktoru, professor
_______________ **İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix elmləri doktoru, dosent

_______________ **Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: Tarix elmləri doktoru
______________ **Fəxrəddin Adil oğlu Cəfərov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XIX əsin II yarısı – XX əsrin əvvəlləri dünya tarixinin, o cümlədən Vətən tarixinin mühüm dövrlərindən biridir. XX əsrin əvvəllərinə doğru milli əsasda mövcud olan Avropa dövlətləri, Osmanlı kimi çoxmillətli imperiyaların parçalanması üçün milli məsələlərdən istifadə etməyə başlamışdılar. Osmanlı dövlətini parçalamaq üçün ortaya atılmış "Şərq məsələsi", eləcə də onun tərkib hissəsi olan "erməni məsələsi"nin meydana çıxmasında çar Rusiyası, Fransa, Böyük Britaniya kimi dövlətlərin maraqları və məqsədləri olmuşdur. Ermənilərin Cənubi Qafqaza, o cümlədən Azərbaycanın İrəvan və Naxçıvan bölgələrinə köçürülməsi, yerləşdirilməsi bu proseslər fonunda baş vermişdir. XX əsrin əvvəllərində dünyada baş verən geosiyasi dəyişikliklər, böyük güclərin təsiri altında ermənilərin təşkilatlandırılması, erməni terror-siyasi təşkilatlarının fəaliyyətlərinin intensivləşməsi, onların ərazi iddialarının daha da artmasına səbəb olmuşdur. Ermənilər planlarının reallaşdırılması üçün terror, qırğın, soyqırım və s. kimi insanlıq əleyhinə olan hər cür vasitələrdən istifadə etmişlər. 1998-ci ildə Ulu Öndər Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" imzaladığı fərmanda haqlı olaraq qeyd olunurdu ki, XIX və XX əsrlərdə ermənilər tərəfindən azərbaycanlılara qarşı planlı surətdə həyata keçirilən bütün faciələr ərazilərin zəbti ilə nəticələnmişdir.[1]

İki yüz ildən bəri Azərbaycan xalqına qarşı davam edən ermənilərin əsassız iddialarının və terrorunun gerçək mahiyyətinin öyrənilməsi, tarixi Azərbaycan torpaqlarının hissə-hissə ermənilər tərəfindən ələ keçirilməsinin üsul və vasitələrinin elmi metodlarla tədqiqi ermənilərin mifik iddialarının gələcək fəsadlarının proqnozlaşdırılması baxımından aktuallıq kəsb edir. Xüsusən İrəvan bölgəsinə iddiaların necə meydana çıxmasının müəyyənləşdirilməsi, bölgədə etno-demoqrafik dəyişikliklərin mənbələr əsasında qiymətləndirilməsi tari-

---

[1] Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı: [Elektron resurs] / Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Normativ hüquqi aktların elektron bazası. ‒ mart 26, 1998. URL: http://www.e-qanun.az/framework/4684.

xi həqiqətlərin ortaya çıxmasına kömək edə bilər. Heç də təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarından birində vurğulamışdır: *"İrəvan, Göyçə, Zəngəzur bizim tarixi coğrafiyamızdır, tarixi torpaqlarımızdır. Ermənistan vaxtilə bizim o torpaqlarda qanunsuz olaraq dövlət qurub".*[2]

Ermənilərin iddiaları İrəvanın ələ keçirilməsi ilə yekunlaşmamışdır, daha azğın formada Qarabağ və Naxçıvan bölgələrinə qarşı davam etmişdir. Naxçıvanın ələ keçirilməsi cəhdlərinin güclənməsinə bir neçə amil ciddi təsir göstərmişdir. Bu çar Rusiyasına Osmanlı dövləti ilə Qafqaz və Mərkəzi Asiyanın türk xalqları arasında əlaqələrin tam kəsilməsi üçün lazım idi. Lakin Naxçıvan əhalisinin əzmkarlığı nəticəsində bu tarixi türk torpağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvanın qorunması üçün atılan addımları aşağıdakı kimi qiymətləndirmişdir: *"İstər XIX əsrdə, istərsə də XX əsrin əvvəllərində Naxçıvana ermənilərin yerləşdirilməsi prosesi davam etdirilsə də, ermənilər tərəfindən Naxçıvanda qırğınlar törədilsə də, Naxçıvan əhalisi heç vaxt azadlıq əzmini itirməmiş, həmişə öz sözünü deməyi bacarmış, düşmənin layiqli cavabını vermiş, hətta naxçıvanlıların qəhrəmanlığı ermənilərin tarixi sənədlərində də öz əksini tapmışdır".*[3]

Bütün yuxarıda qeyd olunanları nəzərə aldıqda, ermənilərin İrəvan və Naxçıvan bölgələrinə ərazi iddialarının tədqiqi bir neçə cəhətdən aktualdır. İlk növbədə XIX əsrin ikinci yarısında böyük dövlətlərin geosiyasi məqsədləri, xüsusilə Rusiya imperiyasının himayəsi sayəsində ermənilərin Cənubi Qafqazda təhlükəli, dağıdıcı antitürk, antiazərbaycan qüvvəyə çevrilməsinin səbəblərinin tarixi kontekstdə öyrənilməsi vacibdir. Aydınlaşdırılmalı olan digər bir məsələ "Böyük Ermənistan" və "Şərqi Ermənistan"la bağlı əsassız iddialarıdır.

---

[2]Prezident İlham Əliyev: İrəvan, Göyçə, Zəngəzur bizim tarixi coğrafiyamızdır: [Elektron resurs] / – Bakı: Yeni Azərbaycan Partiyasının rəsmi internet saytı, – dekabr 5, 2016, URL: http://yap.org.az/az/view/news/17169/prezident-ilham-eliyev-irevan-goyche-zengezur-bizim-tarixi-cografiyamizdir.

[3]Görkəmli şəxslər mart soyqırımı haqqında: [Elektron resurs] / Azərbaycan Milli Kitabxanasının rəsmi internet səhifəsi URL: http://anl.az/soyqirim/sitatlar.php.

Məlumdur ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsi Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıqları meydana çıxarmışdır. Azərbaycan işğal edilmiş ərazilərini azad etməklə yanaşı, Naxçıvan Muxtar Respublikası ilə ölkənin digər əraziləri arasında Zəngəzur dəhlizinin açılması məsələsini də irəli sürmüş, bununla bağlı məqamlar 2020-ci ilin 10 noyabr tarixində Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən imzalanmış üçtərəfli bəyanatda da öz əksini tapmışdır. Bu məsələ Azərbaycan Respublikasının hüquqi haqqı olmaqla bərabər, həm də Azərbaycan xalqının tarixi və mənəvi haqqıdır. Uzun müddət Naxçıvan və Qarabağ xanlıqlarının ayrılmaz tərkib hissəsi olmuş Zəngəzura erməni iddialarının necə meydana çıxdığı, burada etnodemoqrafik tərkibin necə dəyişdirildiyi, sonrakı dövrdə onun Azərbaycandan qoparılaraq Ermənistan deyilən qondarma dövlətə birləşdirilməsi üçün tarixi əsasın necə formalaşdırıldığının aydınlaşdırılması regionda hazırkı geosiyasi dəyişiklikləri başa düşmək baxımından da aktuallıq kəsb edir. Ermənilərin ərazi iddiaları Türkiyə və Azərbaycan tarixşünaslığında ən çox diqqət yetirilən mövzulardandır. Xarici ölkə müəlliflərinin əsərlərində mövzu ilə bağlı obyektiv və subyektiv yanaşmalar mövcuddur.

"Erməni məsələsi", ermənilərin Azərbaycana ərazi iddialarının müxtəlif aspektləri ABŞ, Avropa və rus tədqiqatçılarından C.Makkarti,[4] Y.Markvart,[5] J.Malevil,[6] S.Qlinka,[7] İ.Kanadpev,[8] V.Mayevski[9] kimi müəlliflərin əsərlərində əksini tapmışdır. Həmin müəlliflər ermə-

---

[4]Маккарти, Д. Тюрки и армяне. Руководство по армянскому вопросу (перевод с анг.) / Д.Маккарти, К.Маккарти. – Баку: Азернешр, – 1992. – 159 с.; The Report of Niles and Sutherland an American İnvestigation on Eastern Anatolia after World War I // XI Türk Tarih konqresi, – Cilt V, – Ankara, – 1994, – 1860 p.

[5] Markwart, Y. La province de Parsahayk Revue dey etudes aremeniennes / Y.Marwarkt, 1966. – pp. 252-314.

[6]Малевил, Ж. Армянская трагедия 1915 года / Ж.Малевил. – Баку: Элм, – 1990. – 128 s.

[7] Глинка, С.Н. Описание переселения армян азербайджанских в пределы России / С.Н.Глинка. – Баку: Элм, – 1990. – 144 с.

[8]Канадпевь, И.К. Очерки Закавказской жизни / И.К.Канадпевь. – Баку: Главная редакция Азербайджанской Советской Энциклопедии. – 1990. – 122 с.

[9]Маевский, В. Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса / В.Маевский. – Москва, – 1993. – 68 с.

nilərin Qafqaza köçürülməsi, I Dünya müharibəsində Osmanlı Türkiyəsinin iştirakı məsələlərinə, Qafqaz cəbhəsində cərəyan edən hadisə və proseslərə diqqət yetirmişlər.

Türk tədqiqatçılarından E.Akçora,[10] D.Aydın,[11] T.Bıyıklıoğlu,[12] İ.E.Atnur,[13] Z.Eyyup,[14] K.Gürün,[15] Y.Gökçe,[16] B. Kodaman,[17] S.Laçıner,[18] H.Metin,[19] S.Sertçelik,[20] R.Tosun,[21] və b. tədqiqatçılar tərəfindən erməni məsələsi, Osmanlı dövlətində 1896-1916-cı illərdə erməni üsyanları, erməni komitələrinin qanlı cinayətləri, onların ərazi iddialarının irəli sürülməsində Üçmüəzzin (Eçmiədzin) kilsəsinin rolu, erməni məsələsinin ortaya çıxmasında Fransanın, Böyük Britaniyanın və Rusiyanın rolu tədqiqata cəlb edilmişdir.

Mövzu ilə bağlı Azərbaycandakı bir sıra fundamental nəşrlərdə məlumatlara rast gəlmək mümkündür. Bu cür əsərlər sırasında "Nax-

---

[10] Akçora, E. Van ve Çevresinde Ermeni İsyanları. (1896-1916) / E.Akçora. – İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, – 1994. – 273 s.

[11] Aydın, D. Ermeni Meselesinin Ortaya Çıkmasında Fransanın Rolü // Tarih Boyunca Türklerin Erməni Toplumu ile İlişkileri Sempozyumu. Atatürk Universitesi Rektörlüğü Yayınları, – 8-12 Ekim, – 1984, – Erzurum, – s. 286.

[12] Bıyıklıoğlu, T. Mondoros Mütarekesi'ndə Elviye-i Selase ile İlgili Yeni Vesikalar // Belleten, XXI, 84, – 1957, – s. 572-573.

[13] Atnur, İ. E. Osmanlı yönetiminden Sovyet yönetimine kadar Nahçıvan (1918-1921) / A.İ.Ethem. – Ankara: Türk Tarih Kurumu, – 2001. – 488 s.

[14] Eyüp, Z. Kültür varlıklarının savaş sırasında korunması: Ermenistan işgali altındakı Azerbaycan topraklarında durum / Z.Eyüp, V.İbayev // KÖK Sosyal ve Stratejik Araştırmalar Dergisi. – 2000. c. II, Sayı: 2. – s. 285-297.

[15] Gurun, K. Ermeni dosyası / K.Gurun. – Ankara: Türk Tarih Kurumu Yayınları, – 1983. – 319 s.

[16] Gökçe, Y. Büyük Ermənistanı Kurma Projesi // Ermeni Araştırmaları dergisi, – sayı 1, – mart-nisan-mayıs, – 2001, – s. 87-107.

[17] Kodaman, B. Ermeni Meselesinin Doğuş Sebepleri // – Ankara: Türk Kültürü Dergisi, – 1981. c.19, – s. 240-249.

[18] Laçıner, S. İngiltere ermenileri, lobbiçilik ve erməni sorunu // – Ermeni Araştırmaları Dergisi, – 2002, sayı 7, – s. 71-124.

[19] Metin, H. Türkiyenin Siyasi Tarihinde Ermeniler ve Ermeni Olayları / – İstanbul: Milli Eğitim Bakanlığı Yayınları, – 1992. – 192 s.

[20] Sertçelik, S. Rus və ermeni kaynakları işığında ermeni problemi 1915-1923. Sömürge savaşı / S.Sertçelik. – Ankara: SRT Yayınları, – 2017. – 650 s.

[21] Tosun, R. Ermeni meselesinin ortaya çıkışı ve mahiyeti// R.Tosun. – Ankara: Selçuk Üniversitesi Türkiyat Araştırmaları Dergisi. – 2003. Sayı 14. – s.143-163.

çıvan tarixi" üççildliyi,[22] iki cildlik "Naxçıvan ensiklopediyası",[23] "Naxçıvan tarixi atlası"[24] və b. qeyd oluna bilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun sərəncamları ilə Naxçıvan tarixinə dair müxtəlif illərdə keçirilən beynəlxalq konfrans və simpoziumlarda aparılan müzakirələr Naxçıvanın tarixi ilə bağlı yeni-yeni məqamların ortaya çıxmasına səbəb olmuşdur.

AMEA Tarix İnstitutunun bir qrup əməkdaşı tərəfindən yazılmış "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (2010)" adlı monoqrafiya birbaşa olaraq tədqiqata cəlb edilən dövrlə bağlı olmasa da, ermənilərin iddialarının ilkin dövrlərinin öyrənilməsi baxımından əhəmiyyətli tarixşünaslıq əsəridir.[25] Əsərdə İrəvan xanlığı ərazisinə işğaldan sonra Qacarlar və Osmanlı imperiyalarından ermənilərin kütləvi şəkildə köçürülməsi, türk mənşəli toponimlərin erməniləşdirilməsi, tarixi adlara qarşı erməni vandalizmi və soyqırımı məsələləri tədqiq olunmuşdur.

Azərbaycan tədqiqatçılarının bir qrupu ermənilərin "Böyük Ermənistan" və "Şərqi Ermənistan" iddiaları, Böyük Britaniya və Çar Rusiyasının erməni siyasətinin mahiyyəti, ayrı-ayrılıqda İrəvan və Naxçıvan bölgələrinə iddiaları, tarixi-siyasi proseslərin Azərbaycanın tarixi coğrafiyasına təsirləri haqqında bir sıra əsərlər yazmışlar. Qeyd olunan istiqamətlərdə əhəmiyyətli elmi əsərlər yazmış müəlliflər sırasında AMEA-nın həqiqi üzvü İ.Hacıyev,[26] AMEA-nın həqiqi üzvü T.Köçərli,[27] AMEA-nın müxbir üzvü Z.Şahverdiyev,[28] AMEA-

---

[22]Naxçıvan tarixi: [Üç cilddə] / Red. hey. İ.M.Hacıyev, İ.Ə.Həbibbəyli [və b.] / c.1, – Naxçıvan: Əcəmi, – 2013, – 452 s.; c. 2, – 2014. – 528 s.; c.3, – 2015. – 560 s.

[23]Naxçıvan ensiklopediyası: [2 cilddə] / – İstanbul, – 2005, c. 1. – 356 s.

[24]Naxçıvanın tarixi atlası / – Bakı: Adiloğlu, – 2010. – 182 s.

[25] İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi / Y.Mahmudov, T.Mustafazadə, T.Məmmədov [və b.]. – Bakı: CBC, – 2010. – 616 s.

[26] Hacıyev, İ. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri / İ.Hacıyev, E.Şıxəliyev, E.Cəfərli [və b.] / – Bakı: Elm və təhsil, – 2017. – 223 s.

[27] Köçərli, T.Q. Naxçıvan: uydurmalar və tarixi həqiqətlər /T.Q.Köçərli. – Bakı:Təknur, – 2005. 153 s.

[28]Şahverdiyev, Z.Ə. Xanlıqlar dövründə Naxçıvan // Naxçıvan tarixinin səhifələri. – Bakı, – 1996. – s.103-114.

nın müxbir üzvü H.Səfərli,[29] AMEA-nın müxbir üzvü M.Qasıml,[30] tarix elmləri doktoru, professor A.İsgəndərli,[31] tarix elmləri doktoru, professor K.Şükürov,[32] tarix elmləri doktoru, dosssent E.Şıxəliyev,[33] tarix elmləri doktoru, professor İ.Musayev,[34] tarix elmləri doktoru, dosent İ.Kazımbəyl,[35] tarixçi alimlərdən N.Mustafa,[36] Z.Əmrahov,[37] E.Cəfərli,[38] M.Quliyev,[39] E.Kəlbizadə,[40] Ş.Məmmədov,[41] E.Zaman-

---

[29] Səfərli, H.Y. Qondarma erməni soyqırımı və tarixi həqiqətlər / H.Səfərli. - Naxçıvan: Əcəmi NPB, – 2018. – 208 s.

[30] Qasımlı, M. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920) / M.Qasımlı. – Bakı: Mütərcim, 2014. – 464 s.

[31] İsgenderli, A. Realities of Azerbaijan. 1917-1920 / A.C.İsgenderli. – loomington: Xlibris Corporation, – 2011. – 234 p.

[32] Шукюров, К. Азербайджан в системе международных отношений: 1648-1991. Документы и материалы / К.Шукюров. – Баку: Элм, – 2020. – 736 с.

[33] Şıxəliyev, E.A. Erməni alimlərinin Naxçivanla bağlı iddiaları // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası. – 2009. №1. – s.34-39.; Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi / – Naxçıvan: Əcəmi NPB, – 2018. – 384 s.; İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsinin" yeri və Azərbaycana təsiri (1917-1920) (Böyük Britaniyanın arxiv materialları əsasında) / E.A.Şıxəliyev. – Naxçıvan: Əcəmi, 2016. – 144 s.; Ermənilərin "din" strategiyasının əsas istiqamətləri // – Bakı: Strateji təhlil. SAM, Azərbaycan Respublikasının daxili və xarici siyasəti, beynəlxalq münasibətlərə dair analitik jurnal, – 2014, say: 7-8, – s.65-81.

[34] Musayev, İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti / İ.Musayev. – Bakı, –1998. – 385 s.

[35] Kazımbəyli, İ.F. Naxçıvan: əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər) / İ.F.Kazımbəyli. – Bakı: Elm, – 2007. – 175 s.

[36] Mustafa, N. İrəvan Türk-İslam varlığı nasıl yok edildi / N.Mustafa. – Ankara: Berikan Yayın evi, – 2015. – 289 s.

[37] Əmrahov, Z. Osmanlı imperiyasında "erməni məsələsi" problemi / Z.Əmrahov. – Bakı: Elm və Təhsil, – 2017. – 272 s.; İrəvan quberniyasının tarixi: 1850-1917-ci illər / Z. C. Əmrahov. – Bakı: Nurlar NPM, – 2022. – 368 s.

[38] Cəfərli, E. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi / E.Cəfərli. – Bakı: Nurlan, – 2008. – 280 s.

[39] Quliyev, M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi, əlaqələri / Naxçıvan: Əcəmi NPB, – 2013. – 184 s.

[40] Kəlbizadə, E.H. XX əsrin 20-ci illərində Naxçıvan diyarının inzibati-ərazi quruluşu (tarixi-coğrafi araşdırma) // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərlər jurnalı. İctimai və humanitar elmlər seriyası, – 2017. №1, – s.160-172.

lı[42] və digər müəlliflərin adları xüsusi qeyd edilməlidir.

Akademik İ.Hacıyevin əsərləri birbaşa olaraq XX əsrin əvvəllərində ermənilərin Naxçıvan iddialarının tədqiqinə həsr olunması, arxiv sənədləri əsasında yazılması baxımından aktualdır. Xüsusən, müəllifin "Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri" adlı əsərində Azərbaycan torpaqlarında "Erməni vilayəti" və müasir Ermənistan dövlətinin yaradılması, ermənilərin 1918-1920-ci illərdə Azərbaycana qarşı əsassız ərazi iddiaları, erməni daşnaklarının Naxçıvana ərazi iddiaları və qanlı cinayətləri tədqiq edilmiş, Naxçıvan ərazisinə ermənilərin köçürülməsi, erməni millətçilərinin və terrorçularının vandalizmi hərtərəfli araşdırılmışdır.[43]

XIX əsrin sonu - XX əsrin əvvəllərində Naxçıvanın tarixinə aid ən mühüm əsərlərdən biri AMEA-nın müxbir üzvü, professor Z.Şahverdiyevin monoqrafiyasıdır.[44] Əsərdə Naxçıvan bölgəsinin XIX-XX əsrin əvvəlləri tarixi ilk dəfə olaraq kompleks şəkildə araşdırılmış, Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən ilhaq deyil, məhz işğal edildiyi elmi faktlarla isbatlanmış, bu dövrdən etibarən bölgənin inzibati-ərazi quruluşunda baş verən dəyişikliklər və idarəçilik sisteminin gerçək mahiyyəti açılmışdır. Müəllifin bir sıra digər monoqrafiya, kitab və məqalələrində də tədqiq etdiyimiz problemin müxtəlif aspektlərinə toxunulmuş, xüsusən ermənilərin Naxçıvan və Dərələyəz bölgəsinə iddiaları məsələlərinə toxunulmuşdur.[45]

---

[41]Məmmədov, Ş.Ş. Erməni kilsəsi və onun Rusiyanın Cənubi Qafqaz siyasətindəki yeri // Ş.Ş.Məmmədov. – Bakı: Elm və təhsil, – 2017. – 202 s.

[42]Zamanov, E.D. Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan və Ermənistandakı diplomatik nümayəndəliklərinin fəaliyyəti (1918-1920-ci illər):/ tarix elmləri namizədi dis./ – Naxçıvan, – 2002. – 158 s.

[43]Hacıyev, İ.M. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri / İ.M.Hacıyev. – Naxçıvan: "Əcəmi" NPB, – 2012. – 192 s.

[44] Şahverdiyev, Z.Ə. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində/ Z.Ə.Şahverdiyev. – Bakı: Elm, – 2008. – 264 s.

[45] Şahverdiyev, Z.Ə. 1948-1953-cü illər deportasiyasının əsas məqsədi və acı nəticələri // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Xüsusi buraxılış, -2001. № 8, – s. 38-41; Ermənilərin Azərbaycanlılara qarşı soyqırımı tarixindən (1905-1906-cı illər Naxçıvan) // AMEA Naxçıvan Bölməsinin Xəbərlər jurnalı, -2009. № 1, -s. 40-47; Xanlıqlar dövründə Naxçıvan // Naxçıvan tarixinin səhifələri. – Bakı, – 1996. – s.103-114; XIX-XX əsrin əvvəllərində Naxçıvan bölgəsində demoqrafik

AMEA-nın müxbir üzvü H.Səfərli qondarma erməni soyqırımı və tarixi həqiqətlərə dair yazdığı monoqrafiyada çarizmin köçürmə siyasəti, ermənilərin Naxçıvan ərazilərində yerləşdirilməsi, Azərbaycana qarşı ərazi iddialarının meydana çıxması, törədilən qırğın və soyqırımı aktları sistematik təhlil edilmişdir. Müəllifin bu monoqrafiyasının fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, o müsəlman epiqrafikası abidələrinin məlumatları əsasında ərazinin Azərbaycan xalqına məxsusluğu, erməni iddialarının əsassızlığına dair inkaredilməz faktları ilk dəfə elmi dövriyyəyə gətirmişdir.[46]

AMEA-nın müxbir üzvü, professor M.Qasımlı bir sıra əsərlərində ermənilərin irəli sürdüyü əsassız ərazi iddialarının əsl mahiyyətini açıqlamışdır. Müəllifin "Erməni məsələsi"ndən "erməni soyqırımı"-na: gerçək tarix axtarışında (1724-1920)" adlı əsərində XIX əsrin sonu XX əsrin əvvəllərində böyük dövlətlərin Azərbaycan siyasətinə təsir edən amillər, çar Rusiyasının Şimali Azərbaycan siyasətində erməni amilindən istifadə etməsi, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, azərbaycanlılara qarşı erməni terrorçularının törətdikləri soyqırım və etnik təmizləmə siyasəti araşdırılmışdır.[47]

Tarix elmləri doktoru, professor A.İsgəndərlinin 1917-1920-ci illərdə Azərbaycanda baş verən hadisələrə dair ABŞ-da nəşr olunmuş əsərində xüsusən Osmanlı imperiyasından köçürülmüş ermənilərin Cənubi Qafqaz bölgəsinə yerləşdirilmələri, çar Rusiyasının

---

vəziyyət // AMEA Tarix İnstitutunun Elmi Əsərləri, 26-cı cild, –2008.–s.96-105; Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində/ Z.Ə.Şahverdiyev. – Bakı: Elm, – 2008. – 264 s.; Naxçıvan: tarixi yaddaş və müasir yüksəliş / Z.Ə.Şahverdiyev. – Naxçıvan: Əcəmi, – 2017. – 520 s.; Naxçıvanda erməni təcavüzünün güclənməsi və ona qarşı mübarizə (1914-1918-ci illər) // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, -2010. № 2(34), s.18-21; Şahverdiyev, Z.Ə., Əliyev, Z.Q. "Şərqi Ermənistan" mifi və ermənilərin uydurma ərazi iddiaları// – Naxçıvan: NDU-nun Elmi əsərləri. – 2017. №6 (87).– s. 3-6; Şahverdiyev, Z.E, Çarlık Rusyasının ermenilerin Kuzey Azerbaycana göç ettirme politikasında Nahçivanın yeri (1828-1831) // - İstanbul: Azerbaycan panaraması, -2007, Kasım. Sayı 2, -s. 55-59

[46] Səfərli, H.Y. Qondarma erməni soyqırımı və tarixi həqiqətlər / H.Səfərli. – Naxçıvan: "Əcəmi" NPB, – 2018. – 208 s.

[47] Qasımlı, M. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920) / M.Qasımlı. – Bakı: Mütərcim, – 2014. – 464 s.

süqutundan sonra İrəvanda, Zəngəzurda ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı və qırğınlar etibarlı qaynaqlar əsasında tədqiq edilmişdir.[48]

Tarix elmləri doktoru, professor K,Şükürovun əsəri XIX-XX yüzilliyin əvvəllərində ermənilərin iddia etdikləri bölgələrlə bağlı qəbul edilən sənədlərin öyrənilməsi baxımından əhəmiyyətlidir. Burada həmçinin müxtəlif dövrlərdə imzalanan beynəlxalq ikitərəfli və çoxtərəfli müqavilələrdə İrəvan və Naxçıvan bölgəsi ilə bağlı əksini tapmış məqamlara da toxunulmuşdur.[49]

Tarix elmləri doktoru, dosent E.Şıxəliyevin "İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsinin" yeri və Azərbaycana təsiri (1917-1920) (Böyük Britaniyanın arxiv materialları əsasında)", "Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" monoqrafiyaları da bu baxımdan əhəmiyyətli tədqiqat əsərləridir.[50]

Tarix üzrə fəlsəfə doktoru, dosent Z.Əmrahov "Osmanlı dövlətində "erməni məsələsi" problemi" əsərində "erməni məsələsi" probleminin meydana çıxması tarixini, onun yaranma səbəblərini, böyük dövlətlərin, xüsusilə Rusiya, İngiltərə, Fransanın və erməni kilsəsinin problemin yaranmasındakı rolunu tədqiqata cəlb etmişdir.[51] Müəllifin XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində İrəvan quberniyasının tarixinə həsr olunmuş digər bir əsəri də diqqəti cəlb edir. Əsərdə quberniyanın yaradılması, burada əhalinin say dinamikası və etnik tərkibində baş verən dəyişikliklər, quberniyada iqtisadiyyatın, mədəniyyətin, inzibati idarəçiliyin vəziyyəti təhlil edilmiş,

---

[48]İsgenderli, A. Realities of Azerbaijan. 1917-1920 / A.C.İsgenderli. -Bloomington: Xlibris Corporation, – 2011. – 234 p.

[49]Шукюров, К. Азербайджан в системе международных отношений: 1648-1991. Документы и материалы / К.Шукюров. –Баку: Элм, – 2020. – 736 с.

[50]Şıxəliyev, E.A. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsinin" yeri və Azərbaycana təsiri (1917-1920) (Böyük Britaniyanın arxiv materialları əsasında) / E.A.Şıxəliyev. – Naxçıvan: Əcəmi, 2016. – 144 s.; Şıxəliyev, E.A. Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi / E.A.Şıxəliyev. – Naxçıvan: Əcəmi, – 2018. – 384 s.

[51]Əmrahov, Z. Osmanlı imperiyasında "erməni məsələsi" problemi / Z.Əmrahov. – Bakı: Elm və Təhsil, – 2017. – 272 s.

ermənilərin bölgəyə və buradakı müvafiq idarəçilik strukturlarına yerləşməsi prosesinə diqqət yetirilmişdir.[52]

Tarix üzrə fəlsəfə doktoru N.Mustafanın "İrəvanda türk-islam varlığının necə yox edilməsi"nə dair tədqiqatı çox qiymətli faktlarla zəngindir.[53]

Tarix üzrə fəlsəfə doktoru, dosent Ş.Məmmədovun tədqiqatlarında İrəvan və Naxçıvan bölgələrinə ermənilərin köçürülməsində çar Rusiyasının rolu, erməni kilsəsindən vasitə kimi istifadə etmə niyyətləri[54], erməni terrorunun meydana çıxmasının tarixi kökləri ilə əlaqədar məsələlərə toxunulmuşdur.[55]

Tarix üzrə fəlsəfə doktoru, dosent E.Cəfərlinin "Naxçıvanda erməni-Azərbaycan münaqişəsi"nə həsr olunmuş monoqrafiyası ermənilərin ərazi iddialarını gerçəkləşdirmək üçün hələ qondarma "erməni dövləti"nin yaradılmasına qədərki dövrdə necə təşkilatlanması, hansı terror-siyasi fəaliyyətlər həyata keçirməsini aydınlaşdırmaq baxımından faktlarla zəngin tədqiqatlardan biridir.[56]

Tarix üzrə fəlsəfə doktoru, dosent E.Zamanovun əsərləri ermənilərin 1918-1920-ci illərdə bölgədə yeni ərazilər ələ keçirmək uğrunda iddiaları, bu iddiaların və təcavüzkarlığın qarşısının alınması üçün Azərbaycan diplomatlarının fəaliyyətinin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir.[57]

---

[52]Əmrahov, Z.C. İrəvan quberniyasının tarixi: 1850-1917-ci illər / Z. C. Əmrahov. – Bakı: Nurlar NPM, – 2022. – 368 s

[53]Mustafa, N. İrəvan Türk-İslam varlığı nasıl yok edildi / N.Mustafa. – Ankara: Berikan Yayın evi, – 2015. – 289 s.

[54]Məmmədov, Ş.Ş. Erməni kilsəsi və onun Rusiyanın Cənubi Qafqaz siyasətindəki yeri // Ş.Ş.Məmmədov. – Bakı: Elm və təhsil, – 2017. – 202 s.

[55] Məmmədov, Ş.Ş. Erməni terroru və böyük dövlətlərin ikili standartlar siyasəti: (XIX əsr - XXI əsrin əvvəli): /tarix üzrə fəlsəfə doktoru dis. / Naxçıvan, – 2010. – 169 s.

[56]Cəfərli, E. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi / E.Cəfərli. – Bakı: Nurlan, – 2008. – 280 s.

[57]Zamanov, E.D. Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan və Ermənistandakı diplomatik nümayəndəliklərinin fəaliyyəti (1918-1920-ci illər):/ tarix elmləri namizədi dis./ – Naxçıvan, – 2002. – 158 s.

Bəhs olunan dövrdə tarixi-siyasi proseslərin Naxçıvanın tarixi coğrafiyasına təsirlərinə S.Budaqova[58] və E.Kəlbizadənin[59] bir sıra əsərlərində toxunulmuşdur.

Bundan əlavə, tarix elmləri doktoru, professor O.Sultanovun,[60] AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Q.Mədətovun,[61] AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor V.Baxşəliyevin,[62] tarix elmləri doktoru, professor İ.Musayevin,[63] tarix elmlər doktoru, professor Havva Məmmədovanın,[64] tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidinin,[65] tarix elmləri doktoru Sevinc Əliyevanın, [66] tarix elmləri namizədi, dosent Ə.Əliye-

---

[58]Budaqova, S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı – XIX əsrin birinci qərinəsi) / S.Budaqova. – Bakı: Elm, – 1995. – 96 s.

[59]Kəlbizadə, E.H. Qərb dövlətlərinin siyasi maraqlarında Naxçıvan (1918-1920) // – Naxçıvan: Magistrantların regional elmi konfransının materialları. – 2012. № 3, – s. 31-33; XX əsrin 20-ci illərində Naxçıvan diyarının inzibati-ərazi quruluşu (tarixi-coğrafi araşdırma) // – Naxçıvan: AMEA Naxçıvan Bölməsinin Xəbərlər jurnalı. İctimai və humanitar elmlər seriyası, – 2017. №1, – s. 160-172; Armenian community and diaspora factor in İran-Armenian relations // – Baku: Caucasus Studies scientific-theoretical journal. – 2020, № 1. – pp. 16-26.

[60]Sultanov, O. B. XX əsrin 80-ci illərinin sonu – 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə: tarix elmləri doktoru dis. / – Bakı, – 1996. – 345 s.

[61]Mədətov, Q.Ə. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili / Q.Ə.Mədətov. – Bakı: Azərnəşr, – 1958. – 163 s.

[62] Baxşəliyev, V. və b. Naxçıvanda arxeoloji tədqiqatlar (II Kültəpə, I Maxta Kültəpəsi, Oğlanqala və digər abidələrdə aparılan tədqiqatların ilkin nəticələri) /V.Baxşəliyev, L. Ristvet, H.Gopnik, S.Aşurov. – Naxçıvan: Əcəmi, – 2010. – 119 s. s.76-77.

[63]Musayev, İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti / İ.Musayev. – Bakı, –1998. – 385 s.

[64]Məmmədova, H.İ. Azərbaycan xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət: Erməni terrorizminin güclənməsi (1918-1920) / H.İ.Məmmədova. – Bakı: Nağıl Evi, – 2006. – 150 s.

[65]Рустамова-Тогиди, С. А. Март 1918 г. Баку. Азербайджанские погромы в документах / С.А. Рустамова-Тогиди. – Баку, – 2009. – 864 с.

[66] Алиева, С., Аскер, А. Соперничество за Северный Кавказ: приоритеты внешней политики Османской империи накануне и после 1813 года // Материалы международной научной конференции «Гюлистанский мирный договор 1813 г.: основные итоги и последствия для судеб народов Кавказа». – 2013, 24 сентябр. – Махачкала, – 2013. – с. 30-35.

vin[67] əsərlərində də mövzu ilə bağlı bir sıra məsələlərə toxunulmuşdur.

Ermənilərin Naxçıvan və İrəvan iddialarını ifşa etmək üçün onların elmi ideoloji təbliğat vasitəsinə çevirmələrinə xüsusi diqqət yetirmək lazımdır. Bu baxımdan erməni müəlliflərinin mifik və absurd iddialarla dolu əsərləri dissertasiya işində tədqiqata cəlb olunmuşdur. Buradakı qeyri-obyektiv məqamlar təhlil edilmiş, elmi faktlarla əks-arqumentlər ortaya qoyulmuşdur.

Beləliklə, problemin ayrı-ayrı aspektləri araşdırılsa da, bütövlükdə İrəvan və Naxçıvan bölgələrinə erməni ərazi iddialarının tarixşünaslıqda hərtərəfli və sistemli tədqiqinə ehtiyac vardır.

Dissertasiyada mənbəşünaslıq bazası kimi arxiv materiallarından, dövri mətbuatdan istifadə olunmuşdur. Tədqiqata Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivinin, Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin sənədləri cəlb edilmişdir. Xüsusən, vaxtilə Ermənistan SSR dövlət arxivindən surətləri Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinə gətirilmiş sənədlərin bir çoxu ilk dəfə elmi dövriyyəyə gətirilmişdir. Müxtəlif dövrlərdə dərc edilmiş rəsmi sənədlər, qəzet və jurnal materiallarından istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini ermənilərin Azərbaycanın tarixi İrəvan və Naxçıvan bölgələrinə iddialarını, onların bu əsassız iddiaları gerçəkləşdirmək üçün istifadə etdikləri taktika, üsul və vasitələri, cərəyan edən prosesləri əks etdirən ilkin qaynaqlar (mənbələr, arxiv sənədi, ideoloji əsaslandırma məqsədi ilə yazılmış, siyasi konyukturanın təsirinə məruz qalmış "tədqiqatlar") təşkil edir. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Azərbaycanın İrəvan və Naxçıvan bölgələrində baş verən tarixi-siyasi proseslər, etnodemoqrafik dəyişikliklər, onların İrəvanın və Naxçıvanın gələcək taleyinə göstərdiyi təsirlər, ermənilərin iddialarının səbəbləri və onların reallaşdırılmasından ötrü həyata keçirilən fəaliyyətlər isə tədqiqatın predmetini təşkil edir.

[67] Əliyev, Ə. Əlincə yaddaşı / Ə.Əliyev. – Bakı: Gənclik, – 1997. – 304 s.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın məqsədi Azərbaycanın Naxçıvan və İrəvan bölgələrinə ermənilərin ərazi iddialarının tədqiq edilməsidir. Bu baxımdan əsas xronoloji çərçivə olaraq 1850-1925-ci illər müəyyənləşdirilmişdir. Tədqiqatın məqsədinə uyğun olaraq araşdırmalar zamanı qarşıya bir sıra vəzifələr qoyulmuşdur. Onlar aşağıdakılardan ibarətdir:

- "Şərqi Ermənistan" iddialarının nə zaman və niyə ortaya atıldığının, bunun hər hansı tarixi əsasının olub-olmamasının elmi metodlarla tədqiq edilməsi;
- Ermənilərin İrəvan və Naxçıvan bölgələrinə ərazi iddialarını əsaslandırmaq üçün atdıqları addımların və qurduqları saxta təbliğatın tarixi kontekstdə formalaşma və işləmə prinsiplərinin öyrənilməsi;
- İrəvandan fərqli olaraq, Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılmasına səbəb olan amillərin dəyərləndirilməsi və s.

**Tədqiqat metodları**. Mövzunun tədqiqi zamanı xronoloji-təsvirdən daha çox mövzu-təhlili yanaşmaya üstünlük verilmişdir. Hadisə və proseslərin səbəb-nəticə analizi aparılmışdır. Hadisələr arasında qarşılıqlı müqayisələrin aparılması vasitəsi ilə elmi həqiqətin ortaya çıxarılmasına çalışılmışdır. Bəzi proseslərin struktur-funksional analizi aparılmışdır. Xüsusən ermənilərin köçürülməsi ilə bağlı prosesin tədqiqi bu metodun tətbiqini zəruri etmişdir. Bundan əlavə müqayisəli təhlil, elmi tarixi ümumiləşdirmə, kontent və ivent-analiz metodları dissertasiya işinin aparılması zamanı istifadə olunan əsas metodlar olmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatlar nəticəsində əldə olunmuş bəzi müddəalar elmi yeniliklərin əsaslandırılması baxımından vacibdir. Bu məqsədlə dissertasiyada aşağıda göstərilən müddəalar müdafiəyə çıxarılır:

1. Ermənilərin "Şərqi Ermənistan" iddialarının ortaya çıxmasında Avropa dövlətləri ilə müqayisədə çar Rusiyasının geosiyasi məqsədləri daha əsaslı rol oynamışdır;
2. XIX əsrin I yarısında olduğu kimi, XIX əsrin II yarısında da ermənilərin köçü planlı və məqsədyönlü şəkildə həyata keçirilmiş, sadəcə olaraq köçürülmənin forma və metodları dəyişilmişdir;

3. İrəvan bölgəsində erməni dövlətinin yaradılması ilə bölgənin erməniləşdirilməsinin birinci mərhələsi yekunlaşmışdır;

4. Ermənilərin Naxçıvan iddialarının heç bir elmi və tarixi əsası yoxdur, bu sadəcə olaraq ideoloji təbliğatın məhsuludur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində ilk dəfə olaraq Qərbi Azərbaycan əraziləri – Naxçıvan və İrəvana qarşı ərazi iddiaları kompleks şəkildə tədqiqata cəlb olunmuşdur. Aparılmış tədqiqatlar nəticəsində həmçinin bir sıra digər elmi yeniliklər də əldə olunmuşdur ki, bunlar da aşağıdakılardan ibarətdir:

- Qaynaqlar ermənilərin Cənubi Qafqazda məskunlaşması prosesində böyük güclərin (ABŞ, İngiltərə, Almaniya, Rusiya və s.) maraqlarında bir-birindən fərqli məqamlar olduğunu deməyə əsas verir. İlk dəfə olaraq bu istiqamətdə dövlətlərin siyasətində oxşar və fərqli cəhətlər müəyyənləşdirilmişdir
- Tarixşünaslıqda ilk dəfə olaraq "Şərqi Ermənistan" anlayışının ortaya atılma məqsədləri, səbəbləri öyrənilmiş, ideoloji mahiyyət daşıdığı mənbələrdən gətirilən faktlar əsasında sübuta yetirilmişdir.
- Azərbaycan əraziləri hesabına erməni dövlətinin yaradılmasının təbii, demoqrafik nəticələri faktlar əsasında qiymətləndirilmişdir.
- Ermənilərin Naxçıvan və İrəvan ərazilərinə köçürülməsi prosesində emmiqrant və immiqrant imperiyaların məqsədləri müqayisəli metodlar əsasında təhlil edilmiş, onların oxşar və fərqli cəhətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat zamanı irəli sürülmüş əsas müddəalar və əldə edilmiş elmi nəticələr həm nəzəri baxımdan, həm də təcrübi baxımdan əhəmiyyətlidir. Dissertasiyada əldə edilən elmi nəticələrdən Azərbaycan tarixi ilə yanaşı, Qafqaz bölgəsinin ümumi tarixinin yazılmasında, soyqırımı tarixinin araşdırılmasında, etno-demoqrafik tədqiqatlarda və ümumiləşdirilmiş əsərlərin yazılmasında istifadə oluna bilər. Təcrübi baxımdan ali məktəblərin bakalavr və magistr pillələrində xüsusi kursların tədrisi zamanı tədqiqat işindən istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi**. Dissertasiyanın mövzusu Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 31 yanvar 2017-ci il tarixli iclasında

(protokol № 05) təsdiq olunmuş, 25 fevral 2021-ci il tarixli iclasında (protokol № 07) isə işin adında qismən dəyişiklik edilmişdir. Eyni zamanda dissertasiyanın mövzusu Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Tarix Problemləri üzrə Elmi Şurasının 08 dekabr 2017-ci il tarixli iclasında (protokol № 4/12) təsdiq edilmiş, lakin Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 25 fevral 2021-ci il tarixli iclasında işin adında qismən dəyişiklik edilməsindən sonra Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Azərbaycan tarixi üzrə Elmi Şurasının 29 dekabr 2020-ci il tarixli iclasında (protokol №3) yenidən müzakirə olunaraq təsdiq edilmişdir. İşin əsas müddəaları haqqında tərəfimizdən arxiv sənədləri və mötəbər mənbələr əsasında aparılan tədqiqatlara dair müxtəlif yerli və beynəlxalq konfranslarda məruzələrlə çıxış edilmişdir. Əldə olunan elmi nəticələr müxtəlif jurnal və toplularda dərc olunmuş məqalə və tezislərdə əksini tapmışdır.

Dissertasiya Naxçıvan Dövlət Universitetinin, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun uyğun kafedra və şöbələrinin əməkdaşlarının iştirakı ilə müzakirə olunaraq müdafiəyə təqdim olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, 8 paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla ümumilikdə 264.571 işarədən ibarətdir.

Giriş hissə ümumilikdə 22.512 işarədən ibarətdir. "Erməni məsələsi" və ermənilərin ərazi iddiaları" adlanan ilk fəsil ümumilikdə 66.281 işarədən ibarətdir. Dissertasiya işinin II fəsli "Ermənilərin ərazi iddialarında İrəvan" adlanır, 68.487 işarədən ibarətdir. III fəsil "Ermənilərin Naxçıvan iddiaları və bölgənin Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması" adlanır, 96.404 işarədən ibarətdir. İşin nəticə hissəsində alınan nəticələr ümumiləşdirilmişdir. Bu hissə 10.887 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**“Giriş”**də mövzunun öyrənilməsinin əhəmiyyəti, tədqiqi dərəcəsindən bəhs olunmuş, tədqiqatın məqsəd və vəzifələri, obyekt və predmeti, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, nəzəri-praktiki əhəmiyyəti müəyyənləşdirilmiş, aprobasiyası və tətbiqi imkanları haqqında məlumat verilmişdir.

Dissertasiya **“Erməni məsələsi” və ermənilərin ərazi iddiaları”** adlanan I fəsli üç paraqrafdan ibarətdir. I fəslin **“Erməni məsələsi” böyük dövlətlərin imperialist siyasətinin aləti kimi”** adlı birinci paraqrafında Azərbaycanın Naxçıvan və İrəvan bölgələrinə ermənilərin köçürülməsi, bu əraziləri sahiblik iddialarının güclənməsi, XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəllərində bu iddiaların daha da şiddətlənməsi birbaşa olaraq böyük dövlətlərin imperialist məqsədlərinin nəticəsi olaraq meydana çıxan “Erməni məsələsi” tədqiq edilmişdir. Müəyyən edilmişdir ki, ermənilər “Şərq məsələsi”nin müəllifi olan dövlətlər – xüsusən Böyük Britaniya və çar Rusiyasının təşviqi və dəstəyi ilə XIX əsrdə ermənilər öz xislətlərinə uyğun olaraq heç vaxt mövcud olmamış “dövlətçilik ənənələrini dirçəltmək” üçün pozucu antitürk, anti-Osmanlı fəaliyyətlərinə başlamışdılar. Avropa dövlətləri isə bu məsələni beynəlxalq müstəviyə çıxarmaqla öz geosiyası maraqlarını təmin etməyə çalışır, ermənilərə millətçilik, azadlıq və muxtar dövlət ideyasını təbliğ edirdilər.

Tədqiqat işinin birinci fəslinin **“XIX əsrin sonu – XX əsrin əvvəllərində Osmanlı dövlətindən Qafqaza erməni köçünün səbəbləri və nəticələri”** adlanan II paraqrafda qeyd olunur ki, sənaye cəhətdən sürətlə inkişaf edən Avropa dövlətlərinə nisbətən Osmanlı imperiyasının geriliyi burada yaşayan xristian xalqları arasında, xüsusilə ermənilərdə imperiyanın dağılacağına və bundan istifadə edərək müstəqillik əldə edəcəklərinə ümid yaratmışdı. Buna görə də “Şərq məsələsi”nin tərkib hissəsinə “erməni  məsələsi” də daxil edilmişdi.

Tədricən “erməni məsələsi”ndə Rusiyanın və Böyük Britaniyanın rolu daha çox ön plana çıxmış, Osmanlı dövlətinə xəyanət etdikləri üçün cəzalandırılmış ermənilər isə əsasən çar Rusiyasına üz tutmuşdular. Qafqazda özünə dayaq, eləcə də Osmanlı dövləti ilə Qafqazın müsəlman və türk xalqları arasında “tampon bölgə” yaratmağa çalı-

şan Rusiya ermənilәri Qafqazın Osmanlı dövləti ilə həmsərhəd ərazilərinə yerləşdirməkdə maraqlı idi.

Rusiya ilə Osmanlı dövləti arasında 1853-1856-cı illərdə baş vermiş Krım müharibəsində çarizmə kömək edən ermənilərin müharibədən sonra Cənubi Qafqaza gətirilməsi işi xüsusən güclənmişdi. Ermənilərin yerləşdirilməsinin azərbaycanlılar və digər müsəlman xalqlar üçün ağır etno-demoqrafik, sosial və iqtisadi nəticələri olmuşdu.

Qafqazda rusların müstəmləkəsi olan torpaqlarda məskunlaşdırılmış ermənilərdən Qafqaz cəbhəsində çar ordusunda kəşfiyyat-cəza ekspediyası kimi istifadə etmək olardı. Bunun üçün onlara Osmanlının yeddi vilayəti və Kilikiya vədinin verilməsi yetərli idi.[68]

Aparılan təhlillər XIX əsrin sonu XX əsrin əvvəllərində Osmanlı dövləti ərazisində Qafqaz ərazilərinə ermənilərin köçürülməsinin bir neçə səbəbini müəyyən etməyə imkan verir. Aydın olur ki, XIX əsrdə Osmanlı təbəəsi olan ermənilərin Qafqaz ərazilərinə köçünün əsas səbəblərindən biri çar Rusiyasının himayəsi altında münbit ərazilərdə yerləşmək niyyətləri olmuşdur. Osmanlı dövlətinin cəza tədbirlərini həyata keçirməsi, bu cür terrorçu dəstə üzvlərinin və üsyanlarda iştirak etmiş şəxslərin Osmanlı dövlətinin ərazilərini tərk edərək Qafqaza gəlməsinə səbəb olmuşdu.

I fəslin **“Şərqi Ermənistan”, “Qafqaz Ermənistanı” mifləri və tarixi faktlar”** adlı III paraqrafda ermənilər torpaq iddialarını əsaslandırmaq üçün müxtəlif terminlər düşünmüş, onları əvvəlcə ictimai, sonra elmi, sonra isə siyasi dövriyyəyə gətirmişlər. Osmanlı imperiyasının 6 şərq vilayətini “Qərbi və Cənubi Ermənistan” elan edən ermənilər XX əsrin əvvəllərində burada niyyətlərini gerçəkləşdirə bilmədilər. Yeni hədəf Qafqaz, xüsusən vaxtilə ermənilərin köçürülərək məskunlaşdırıldıqları tarixi Azərbaycan torpaqları – İrəvan, Naxçıvan və Qarabağ idi. Azərbaycan torpaqlarını özününküləşdirmək üçün bir neçə mifoloji uydurma terminlər gündəmə gətirmişdilər: “Şərqi Ermənistan”, “Rusiya Ermənistanı”, “Qafqaz Ermənistanı” və s.

---

[68]Лалаян А. «Контрареволюционный» «Дащнакцутюн» и имперaлистичикая война 1914-1918// Револнициoнный Восток «Оргапн НИА по изучениго национальных и колониалыных проблем. – М., – 1936. № 2-3 (36-37), – с. 97-98.

1826-1828-ci illərdə baş verən Rusiya-Qacarlar müharibəsindən sonra Azərbaycanın əvvəlcə İrəvan, sonra isə Naxçıvan xanlıqlarının Çar Rusiyası tərəfindən işğalının rəsmiləşməsi “Şərqi Ermənistan”ın Rusiyaya ilhaqı və ya birləşdirilməsi kimi təqdim olunur. Halbuki müqavilənin mətnində belə söhbət hansısa “Şərqi Ermənistan”ın deyil, iki Azərbaycan xanlığının - Naxçıvan və İrəvanın Rusiya tərəfindən işğalından gedir.

Rusiya Cənubi Qafqazın işğalını başa çatdırdıqdan sonra özünün imperiya məqsədlərinə uyğun olaraq ermənilərin kütləvi şəkildə Qafqaza köçürülməsinə başlamışdı. 1828-ci il martın 21-də çar I Nikolay tərəfindən verilən fərmana görə əvvəlki İrəvan və Naxçıvan xanlıqlarının ərazisində “Erməni vilayəti” yaradılmışdı.[69] Bir sıra müəlliflər əsassız olaraq bu prosesi “qədim torpaqları”nın ermənilərə qaytarılması kimi qələmə almağa cəhd etmişlər.[70] Lakin fərmanın mətnində də hansısa “qaytarılma” və ya “bərpadan” deyil, məhz vilayətin “yaradılması”ndan bəhs olunurdu. Qeyd olunurdu ki, İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində “Erməni vilayəti” yaradılsın.[71] Vilayət inzibati islahat nəticəsində 1840-cı il 10 aprel tarixli imperator fərmanı ilə ləğv edilmişdi.[72]

Öz xəyanətləri ucbatından Anadoludakı “həyati məkanlarını” itirmiş, maddi itkilər və psixoloji zərbələrə məruz qalmış ermənilər

---

[69] Акты собранные Кавказкою Археологическою Коммиссиею. Архив Главного Управления Наместника Кавказскаго / Издан под редакциею председателя комиссии д.с.с. Ад.Берже. -Тифлис. Типография Главного Управления Наместника Кавказскаго. – Т. 7. – 1878, – с. 503.

[70]Свйатоховски Т. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə // – Bakı: XUN, – 2000. – s.17.

[71] Акты собранные Кавказкою Археологическою Коммиссиею. Архив Главного Управления Наместника Кавказскаго. / Издан под редакциею председателя комиссии д.с.с. Ад.Берже. -Тифлис. Типография Главного Управления Наместника Кавказскаго. Т. 7. – 1878, – с. 487.

[72]Полное собрание законов Российской империи, собрание 2-е, Т.XV, – СПб. – 1841. – с. 237.

1918-1920-ci illəri “çoxdan itirilən müstəqil dövlətçilik həyatının”[73] dirçəldilməsi dövrünün başlanğıcı elan etmişlər.

Sovetləşmədən sonra - 1921-ci ilin martında Moskvada aparılan sovet-türk danışıqlarının nəticəsində Qafqazdakı bir sıra bölgələrin taleyi həll olunmuşdur. Xüsusən Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılmasında bu danışıqlar əhəmiyyətli rol oynamışdır.

Beləliklə, ermənilərin xəyali “Böyük Ermənistan” ideyasının tərkib hissəsi olan mifik “Şərqi Ermənistan” İrəvan xanlığı, Naxçıvan xanlığının bir hissəsi, Zəngəzur, Dərələyəz ərazisində Rusiyanın köməyi ilə xristian dövləti kimi yaradılan müasir Ermənistan Respublikasından “geniş məzmuna” malik anlayış olub, Azərbaycana ərazi iddiasının əsaslandırılmasını nəzərdə tutan şərti, uydurma termindir.

**“Ermənilərin ərazi iddialarında İrəvan”** adlı II fəsl üç paraqrafdan ibarətdir. **“Ermənilərin İrəvan bölgəsində yerləşdirilməsi səbəbləri”** adlı birinci paraqrafda qeyd edilir ki, 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Azərbaycan ərazisində xanlıqlar dövlət təsisatı forması kimi meydana çıxmış, İrəvan xanlığının ərazilərində yaranmış İrəvan xanlığının ərazisi Zəngəzur bölgəsi istisna olmaqla müasir Ermənistanı, indiki Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək rayonlarını və indiki Türkiyə Cümhuriyyətinin İqdır elini əhatə etmişdir. İrəvan xanlığının əhalisinin əsasən türkdilli azərbaycanlılardan ibarət olması, aborigen olması bütün qaynaqlar tərəfindən təsdiqlənən, inkarolunmaz faktdır.[74] Rus qoşunlarının müxtəlif generalları da bu barədə imperiya mərkəzinə yazdıqları raportlarda bu həqiqəti etiraf etmişdilər. Rusiya qoşunlarının Qafqazdakı ali baş komandanı general Paskeviç buranı çox çətinliklə ələ keçirdikdən sonra xanlıqda azərbaycanlı ailələrinin sayını 10000 ailə, ermənilərin sayını isə 3000 ailə olaraq göstərmişdi.[75]

---

[73]Качазнуни Ов. Дашнакцутюн больше нечего делать! – Баку: Елм, – 1990. – с. 29.
[74]Əliyeva, F. İrəvan xanlığı // Azərbaycan. – 2009, 18 mart. – s.6.
[75]Yenə orada. – s.6.

I Nikolayının 21 mart 1828-ci il tarixli fərmanı ilə İrəvan və Naxçıvan xanlıqları ləğv olunaraq “erməni vilayəti” yaradılmışdı. Bölgədə ermənilərin say üstünlüyünü təmin etmək üçün Osmanlı və Qacarlar dövlətinin ərazilərindən Naxçıvan və İrəvana çoxsaylı erməni köçürülmüş, bölgənin yerli avtoxton azər-baycanlı əhalisi isə indiki Türkiyə və İran ərazilərinə köçməyə məcbur edilmişdi. “Erməni vilayəti” İrəvan, Naxçıvan əyalətlərinə və Ordubad dairələrinə ayrılmışdı.

Çar Rusiyasının əzəli düşməni hesab etdiyi Osmanlı imperiyasına qarşı ermənilərdən istifadə etmək planları geniş idi. Osmanlıya qarşı ermənilərin seçilməsinin səbəbi o idi ki, uzun illər ərzində Osmanlı imperiyasında “milleti-sadıka” (sadiq millət) adlandırılmış, Osmanlı dövlət sisteminə yaxşı bələd olan ermənilər Osmanlı dövlətinə qarşı mübarizənin təşkili üçün əhəmiyyətli rol oynaya bilərdilər. İrəvan əyalətinin məhz Anadoludan Qafqaza keçid yolu üzərində yerləşməsi buraya ermənilərin yerləşdirilməsində xüsusi əhəmiyyətli rol oynadı.

Bütün Qafqaza olduğu kimi, İrəvan bölgəsinə də ermənilərin köçləri XIX əsrin ikinci yarısında da davam etmiş, kütləvi köçürülmə nəticəsində Rusiya imperiyası etnodemoqrafik şəraiti əsaslı surətdə dəyişdirə bilmişdi. **“XIX əsrin sonu – XX əsrin başlanğıcında İrəvan bölgəsində mövcud durum və dəyişikliklər”** adlanan II paraqrafda qeyd edilir ki, 1849-cu il iyunun 9-da İrəvan quberniyası yaradıldı. Quberniyanın mərkəzi İrəvan şəhəri oldu. Köçürülmə prosesinə baxmayaraq, sahəsi 27.830 $km^2$ olan İrəvan quberniyasında azərbaycanlılar yenə də çoxluq təşkil edirdilər. 1849-1917-ci illərdə mövcud olmuş İrəvan quberniyasının ərazisinə Rusiya işğalından sonra yaradılmış qondarma “erməni vilayəti”nin bütün ərazisi, o cümlədən Aleksandropol qəzası və Mığrı sahəsinin bir hissəsi daxil edilmişdi. Quberniya inzibati baxımdan beş qəzaya: İrəvan, Aleksandropol, Novo Bayazid, Naxçıvan və Ordubad qəzalarına ayrılmışdı. Qəzaların tərkibində sahələr yaradılmışdı. Zəngibasar, Sürməli, Sərdarabad və Şərur sahələri İrəvan qəzasının inzibati bölgüsünə daxil idi. Rusiya imperiyası heç bir tarixi və hüquqi əsas, sosial və iqtisadi zərurət olmadan yaratdığı “erməni vilayəti”ni ləğv etsə də, İrəvan bölgəsini erməniləşdirməyə, ermənilərin ərazi iddialarını gerçəkləşdirməyə çalışırdı.

1877-1878-ci illərin Rusiya-Osmanlı savaşında çar ordusunun qələbəsi, Osmanlının bir sıra vilayətlərinin Rusiyaya birləşdirilməsindən sonra İrəvan quberniyasında, habelə Cənubi Qafqazın bir sıra bölgəsində ermənilərin kütləvi yerləşdirilməsi prosesi gücləndi.

Ermənilərin bölgəyə köçürülməsinin nəticəsi 1886-cı ilin may ayında başlayan siyahıyaalınmada özünü göstərdi. Belə ki, İrəvan quberniyasının İrəvan şəhərində cəmi 2968 ev (dım) var idi. Şəhərdə 14738 nəfər yaşayırdı. Ermənilərə məxsus evlərin sayı 1481, azərbaycanlılara məxsus evlərin sayı 1385 idi. Şəhərdə 3827 kişi, 3315 qadın erməni, 3797 kişi, 3431 qadın azərbaycanlı yaşayırdı. İrəvan qəzasında ermənilərə məxsus 5216 evdə 19712 kişi, 16714 qadın yaşayırdı. Azərbaycanlılara məxsus 7383 evdə 29719 kişi, 23161 qadın yaşayırdı.[76]

Məkrli planları olan ermənilərin məqsədi ilk növbədə İrəvan və onun ətraf kəndlərini müsəlmanlardan təmizləmək, sonra isə İrəvandan Naxçıvana doğru gedən yolda azərbaycanlıların yaşadıqları yaşayış məntəqələrini dağıtmaq, daha sonra isə Zəngəzurda etnik təmizləmə aparmaq idi.[77]

Tarixi mənbələr İrəvan quberniyasında ermənilərin dörd mərhələni əhatə edən qırğınlar təşkil etdiklərini təsdiq edir. Erməni ideoloqları, kilsəsi və siyasi partiyaları, terrorçu təşkilatları "Böyük Ermənistan"ın ilk bünövrəsini əzəli Azərbaycan torpağı olan keçmiş İrəvan xanlığında qoymağa başladılar.

Gürcü tədqiqatçısı Quram Marxuliya göstərir ki, ermənilərin etnik və toponimik islahatları tarixi həqiqətləri gizlətmək iqtidarında deyildir. Onlar tarixi Azərbaycan və gürcü vilayətlərində toponimləri dəyişdirərək erməniləşdirməyə cəhd etmişlər.[78]

Beləliklə, tarixi faktlar, müxtəlif mənbələr sübut edir ki, qədim Azərbaycan ərazisi olan, İrəvan regionu Türkiyədə erməni muxtariy-

---

[76] Гасымлы, М. Анатолия и Южный Кавказ в 1724-1920-е гг.: в поисках исторической истины / М.Гасымлы. – Москва: Инсан, – 2014. – с. 40.

[77] Ordubadi, M.S. Qanlı illər / M.S.Ordubadi. – Bakı: Qafqaz, – 2007. – s.96.

[78] Мархулия, Г. Столица Армении-Азербайджанский город Иреван: [Электронный ресурс] // URL: https: www//1905az/ru/%Do%D1%83%D1%80%D0% B0%.

yəti ideyasının iflasından sonra Cənubi Qafqazda, xüsusən Azərbaycanda və onun İrəvan regionunda öz ərazi iddialarının və məkrli dövlətçilik ideyalarını reallaşdırmağa başlamışlar.

II fəslin **"İrəvan bölgəsində erməni dövlətinin yaradılması və bölgənin erməniləşdirilməsinin birinci mərhələsi"** adlı üçüncü paraqrafda qeyd edilir ki, Birinci Dünya müharibəsi illərində ermənilərin Osmanlı Türkiyəsinə xəyanəti və "Türkiyə Ermənistanı" muxtar qurumu yaratmaq ideyasının iflası onların Cənubi Qafqazda, Şimali Azərbaycanda, xüsusən İrəvan bölgəsində dövlət yaratmaq, ərazi iddialarını reallaşdırmaq planını sürətləndirdi.

Qədim Azərbaycan torpaqlarına Kiçik Asiyanın Şərq hissəsindən, o cümlədən Vandan xəyanətləri müqabilində qisas və ədalətli cəzadan yaxa qurtararaq gələn ermənilər İrəvan bölgəsində sığınacaq tapmaqla kifayətlənməyərək ərazi iddiaları irəli sürmüş və erməni dövləti qurmaq arzularını reallaşdırmışlar.

1915-1916-cı illərdə Osmanlıdan qaçan 500 min nəfər ermənidən 100 min nəfəri Cənubi Qafqazda, böyük əksəriyyəti isə tarixi Azərbaycan torpaqlarında məskunlaşdı.

1918-ci ildə I Dünya müharibəsi bitdikdə Ermənistanın ilk dövlətinin İrəvan bölgəsində necə yarandığı haqqında ilk erməni hökumətinin daşnak baş naziri O.Kaçaznuni yazırdı ki, 1918-ci il mayın sonlarında nə yeri, nə də vaxtı seçmək oldu. Tarix bizi müəyyən bir vəziyyətə gətirib çıxartdı. Biz cəsarətimizi toplayıb onu həll etməliydik, çünki məhvə məhkum olmaq istəmirdik.[79] Biz Ermənistanın sahibi olmalıydıq, yoxsa onu əbədi itirə bilərdik. Bəllidir ki, burada Kaçaz-nuni siyasi manipulyasiya ilə məşğul idi. Qafqazda heç bir zaman Ermənistan olmamışdı. Onlar Ermənistana deyil, özgələrinin torpaq-larına sahib olmağa çalışırdılar

Əzəli Azərbaycan torpaqlarında yaradılmış Ararat Respublikasının əhalisinin əksəriyyəti azərbaycanlılar və digər müsəlmanlardan ibarət idi. İngilislər Birinci Dünya müharibəsinin sonunda öz ekspansionist siyasətlərinə uyğun olaraq daşnaklardan istifadə etmişdilər. S.Yusif-

---

[79] Качазнуни, Ов. Дащнакцутюн больше нечего делать / Ов.Качазнуни. – Баку: Элм, – 1990. – 29 с

zadə yazır ki, daşnakların hərəkət planları, fəaliyyət ssenariləri Londonda tərtib olunurdu.[80] Faktiki olaraq erməni dövlətini ingilislər dəstəkləməsə və təşviq etməsəydi, daşnakların Naxçıvan və Zəngəzurla bağlı təcavüzkar planlarını belə miqyasda gerçəkləşdirməsi qeyri-mümkün idi.

Böyük Britaniya ümumtürk birliyinin yaranmaması üçün erməni dövlətinin möhkəmlənməsinə yardımlar etməklə öz milli və geosiyasi maraqlarına uyğun olaraq türk birliyinin yaranmasının qarşısında sədd çəkmiş oldu. E.Şıxəliyev haqlı olaraq göstərir ki, erməni dövlətinin qurulması Böyük Britaniyanın, ümumilikdə Antantanın məqsədlərindən biri olub.[81]

Batum sazişinə əsasən, erməni dövlətinin ərazisi Birinci Dünya müharibəsinə qədər ermənilərin İrəvan bölgəsində yığcam məskunlaşdıqları ərazilərlə məhdudlaşırdı. 1918-ci ildə Şərqi Anadoluda qırğınlar törətdikdən sonra türk qoşunlarının önündə qaçan erməni dəstələri quldur Andranikin başçılığı ilə Gümrüdən Qarakilsəyə, oradan Dilican dərəsinə, Göyçəyə, sonra Naxçıvana və Zəngəzura keçərək azərbaycanlı kəndlərini viran qoymuşdur.

E.Şıxəliyev yazır ki, İngiltərənin əsas niyyəti Qafqazda yaşayan çoxsaylı etnik qruplara və dinlərə məxsus xalqlar arasından türklərə qarşı istifadə etmək üçün ermənilər ən əlverişli etnik qrup idi. İngilislər çalışırdılar ki, bu qruplar içərisində hansı millətin türklərə qarşı ciddi müqavimət göstərə biləcəyini müəyyənləşdirsinlər. Daha sonra o, yazır: *"Türksoylu olması baxımından Osmanlıya rəğbət göstərən Azərbaycan türklərinə etimad göstərilməyəcəyi bəlli idi. Öz növbəsində Azərbaycan türkləri də İngiltərənin ermənilərə göstərdiyi yardımlardan dolayı olduqca narahat idilər. Hətta bu yardım ermənilər tərəfindən azərbaycanlılara qarşı qıcıqlandırma metodu kimi də istifadə olunurdu".*[82]

---

[80]Yusifzadə, S. Ermənistan-Azərbaycan münaqişəsi və İngiltərənin mövqeyi (1918-1920-ci illər) // – Bakı: Dirçəliş – XXI əsr, – 2004. № 76-77, – s. 256.
[81]Şıxəliyev, E.A. İngiltərənin geosiyasi maraqlarında "erməni məsələsinin" yeri və Azərbaycana təsiri (1917-1920), – s. 55.
[82]Yenə orada, – s. 21.

Azərbaycan Xalq Cümhuriyyətinin İrəvan şəhərinin Ermənistana verilməsilə bağlı professor M.Qasımlı ABŞ və digər xarici ölkələrin mötəbər arxiv sənədlərinə əsaslanaraq yazır ki, Türk torpaqlarında yaradılmış Ararat Respublikasının paytaxtı yox idi. Ona görə ki, 1918-ci ilə qədər Cənubi Qafqazda Ermənistan adlı dövlət olmamışdır. Ermənistan Milli Şurası Azərbaycana müraciət edərək İrəvan şəhərini paytaxt kimi yeni yaradılmış Ararat Respublikasına verilməsini xahiş etmişdir. Bu məsələni hər iki milli şuranın nümayəndələri müzakirə etmişdilər. Azərbaycanın İrəvanın Ermənistana güzəştə getməsinin səbəblərini belə izah edərkən, professor Musa Qasımlı göstərir ki, hər şeydən əvvəl Azərbaycana xarici ölkələr tərəfindən ciddi təzyiqlər var idi.

Tarixi proseslərin təhlili göstərir ki, siyasi mərkəz olaraq daşnaklar əvvəlcə Aleksandropolu tələb edirdilər. Şəhəri nəzarət altına almış Osmanlı qoşunları isə buranı vermək istəmirdi. M.Qasımlı başqa bir səbəbə də toxunaraq yazır: *"Azərbaycan Milli Şurası belə hesab edirdi ki, İrəvanı paytaxt kimi verəndən sonra iki xalq arasında əmin-amanlıq yaranacaq, ermənilər əsassız iddialarına son qoyacaqlar".*[83]

Aparılan təhlillər sübut edir ki, tarixi Azərbaycan torpaqlarında erməni dövlətinin yaradılması, onun ərazilərinin tədricən özgə torpaqları hesabında genişləndirilməsi prosesi xüsusi planlar əsasında, mərhələlərlə gerçəkləşdirilmişdir.

İlk növbədə Azərbaycanın torpaqlarında yerli azərbaycanlılara qarşı təmizləmə, soyqırım, siyasəti həyata keçirilmiş, erməni dövlətinin yaradılması üçün zəmin yaradılmışdı.

Beləliklə, XX əsrin əvvəllərində ermənilər heç vaxt mövcud olmadıqları ərazilərdə, xüsusən Azərbaycanın İrəvan bölgəsində - Qərbi Azərbaycan ərazisində ilk dəfə olaraq daşnak Ararat Respublikası qurdular. Birinci Dünya müharibəsində xəyali "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək istəyən ermənilər, Antanta, o cümlədən Rusiyanın təhriki ilə Osmanlı İmperiyasına xəyanət edərək arxadan zərbə vursalar da ağır məğlubiyyətə uğradılar. Qafqaz Ermənistanı iddiasını həyata keçirmək üçün Azərbaycanın İrəvan bölgəsində

---

[83] Гасымлы, М. Анатолия и Южный Кавказ в 1724-1920-е гг.: в поисках исторической истины. – с. 466.

avtoxton azərbaycanlıları kütləvi qırğınlara məruz qoyaraq müstəqil dövlət yaratdılar.

**"Ermənilərin Naxçıvan iddiaları və bölgənin Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması"** adlı fəsl iki paraqrafdan ibarətdir. **"Ermənilərin xəyali "Böyük Ermənistan" iddialarında Naxçıvanın yeri və tarixi həqiqətlər"** adlı I paraqrafda qeyd edilir ki, Ermənilərin XIX əsrdə Azərbaycanın İrəvan bölgəsinə qarşı ərazi iddiaları XX əsrin əvvəllərində bu ərazidə erməni dövlətinin yaranması ilə nəticələndi. Naxçıvanla bağlı məkrli niyyətlərini isə gerçəkləşdirə bilmədilər. Onlar əsassız olaraq "Ermənistan Naxçıvanı" ifadəsini işlədir, Naxçıvanın tarixini, toponimlərini saxtalaşdırır, daha doğrusu, erməniləşdirirlər. Həqiqətdə isə bütün faktlar sübut edir ki, ermənilər heç bir zaman Naxçıvanın yerli sakinləri olmamışlar və bu əraziyə gəlmədirlər.

Ermənilərin xəyanəti, rus qoşunlarına köməkliyi və bələdçiliyi nəticəsində 27 iyun 1827-ci ildə Naxçıvan işğal olundu. 1828-ci ilin martında çar I Nikolay ermənilərə verdiyi vədi yerinə yetirdi. O, İrəvan və Naxçıvan xanlıqlarını ləğv edib "Erməni vilayəti" adlanan qondarma bir qurum yaratdı. Mənbələri araşdırarkən belə bir fakt üzə çıxmışdır: "*Çar I Nikolayın qraf Paskeviçə göndərdiyi teleqramda Türkmənçay müqaviləsindən dərhal sonra yazılmışdı: "Təbrik edirəm! Nəhayət ki, Böyük Ermənistan yaradıldı!*".[84]

M.Quliyev yazır ki, burada maraqlı bir nüans var. O, göstərir: *"Çar I Nikolay yazmır ki, Böyük Ermənistan bərpa edildi. Yazır ki, yaradıldı. Bu isə ermənilərin Böyük Ermənistan iddialarını təkzib edən faktdır".*[85]

Ermənilərin Naxçıvana və digər Azərbaycan torpaqlarına iddia irəli sürməsində XIX əsrdə buraya ermənilərin indiki İran və Türkiyə ərazilərindən köçürülüməsi əsas rol oynamışdır. Rusiya-Qacar (1826-1828) və Rusiya-Türkiyə (1828-1829) müharibələrinin Rusiya üçün uğurlu başa çatması ermənilərin Şimali Azərbaycana, onun ayrılmaz

---

[84] Quliyev, M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi, əlaqələri / Naxçıvan: Əcəmi, – 2013. – s. 145

[85] Quliyev, M. Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi, əlaqələri,. – s. 145

tərkib hissəsi olan Naxçıvana köçürülmələrinə əlverişli şərait yaratmışdı.

Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan sənədlərin tədqiqi göstərmişdir ki, XIX əsr boyu davam etmiş köçürmələr nəticəsində Naxçıvan əyalətində 1897-ci ildə yaşayan 136536 nəfərdən 90397-si (66,3 faiz) azərbaycanlı, 44604-ü (32,7 faiz) erməni olmuşdur. Köçürülmələr hesabına ermənilərin sayı 17 dəfədən çox artsa da, azərbaycanlıların sayı yenə də ermənilərlə müqayisədə 2 dəfədən də çox idi.[86]

Müasir mərhələdə Naxçıvanın erməni ərazisi olmasını dünyaya təhrif olunmuş şəkildə çatdıran, ictimayi rəyi çaşdıran ermənilər himayədarlarının, diaspor qüvvələrinin, lobbilərinin, güclü maliyyə imkanlarına malik erməni təşkilatlarının yardımı ilə saxta ərazi iddialarını beynəlxalq aləmə "sırımağa" çalışırlar. Dünya informasiya vasitələrində saxta məlumatlar yayır, Qars müqaviləsinin ləğv edilməsinə çalışır, Naxçıvanı heç olmazsa mübahisəli əraziyə çevirməyə cəhd edirlər.

**"XX əsrin əvvəllərində Naxçıvana iddialar və bölgənin Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılması"** adlı II paraqrafda qeyd edilir ki, 1917-ci ilə qədər "Türkiyə Ermənistanı" uğrunda mübarizə aparan daşnaklar, oradan əllləri üzüldükdən sonra Cənubi Qafqazda qədim Azərbaycan torpaqlarında erməni dövləti yaratmağı planlaşdırırdılar. Bundan sonra ermənilərin Naxçıvana iddiaları daha da artmışdır.

Ermənilərin əsas iddia etdikləri ərazilər sırasında uzun əsrlər boyunca tarixi taleyi Naxçıvan diyarı ilə bağlı olmuş Zəngəzur qəzası xüsusi yer tuturdu. Lakin burada da əhalinin say tərkibi ermənilərin xeyrinə deyildi. Həmin dövrdə burada yaşayan əhalinin 123 min 95 nəfəri azərbaycanlı, 99 min 275 nəfəri erməni idi.[87] Arxiv sənədləri təsdiq edir ki, Birinci Dünya müharibəsi dövründə, Rusiyada çarın

---

[86]Hacıyev, İ. Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri / İ.Hacıyev, E.Şıxəliyev, E.Cəfərli [və b.] / – Bakı: Elm və təhsil, – 2017. – s. 33.

[87]Zaqafqaziya Respublikaları arasında mübahisəli olan ərazilər haqqında (01 mart 1921-ci il) // RDSSTA, Fond № 5, siyahı № 1, iş № 2796, – v. 4.

devrilməsindən sonra Zəngəzurda idarəçiliyin zəifləməsi[88] ermənilərin azərbaycanlılara qarşı təcavüzkarlığını artırmışdı.

Osmanlı qoşunlarının bölgəni tərk etməsindən sonra ermənilər öz niyyətlərini həyata keçirmək üçün Antana dövlətlərinə, xüsusən ingilislərə daha çox bel bağlamağa başladılar. 1919-cu ilin əvvəllərində ingilislər Naxçıvanı nəzarət altına aldılar, yerli əhalinin məhəlli idarəçiliyi olan Araz-Türk Respublikası və Naxçıvan milli komitəsi ləğv olundu. İngilislər Naxçıvanın Ermənistana birləşdirilməsi üçün üsullar və yollar axtarırdılar.

Azərbaycan Xalq Cümhuriyyətinin İrəvandakı diplomatik nümayəndəliyinin başçısı Məhəmməd xan Təkinski 1919-cu ilin aprelində XİN-ə göndərdiyi teleqramında yayılan xəbərlərə görə ingilislərin Qarsı, Şəruru və Naxçıvanı ermənilərə verdiyi barədə məlumat verirdi.[89] Lakin Naxçıvanın yerli əhalisi qəhrəmanlıqla müqavimət göstərmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Antanta dövlətlərinin qüvvələrinin baş komandanlığının Naxçıvanın idarəçiliyinin müvəqqəti olaraq Ermənistan hökumətinə verməsinə kəskin və birmənalı şəkildə etiraz etmişdi. Qəti olaraq bildirilmişdi ki, Naxçıvan, Ordubad, Şərur-Dərələyəz qədim Azərbaycan torpaqlarıdır.[90] Lakin bütün bu etirazlar ingilis komandanlığı tərəfindən qəbul edilmədi. Erməni Gevorq Varşamyan Naxçıvana qubernator təyin edildi. Bir neçə gündən sonra erməni qaçqınlarının qaytarılması adı altında başqa ərazilərdən Naxçıvana erməni əhalinin köçü təşkil edildi.[91]

Böyük Britaniya ermənilərlə bağlı üzərinə götürdüyü öhdəliklərin bir qismini gerçəkləşdirdi. Bununla problemi həll etdiklərini düşünən

---

[88]Краткий летучий обзор управления, истории Зангезура с 14-го по 21-й год / Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, Fond 314, siyahı 5a, iş. 17, – v. 11-12.

[89]Zamanov, E.D. Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan və Ermənistandakı diplomatik nümayəndəliklərinin fəaliyyəti, – s. 61.

[90] Xarici İşlər naziri M.Y.Cəfərovun Bakıda müttəfiq ordularının komandanı V.Tomsonla danışıqların yekunları barədə Nazirlər Şurasının sədri N.Usubbəyova məlumatı (07 may 1991-ci il) //ARDA, fond № 970, siyahı № 1, iş № 60, – v. 3.

[91]Hacıyev, A. Qars və Araz-Türk Respublikalarının tarixindən / A.Hacıyev. – Bakı: Elm, – 1994, – s. 123.

ingilis hərbi qüvvələri bölgədən çıxmalı idilər.[92] İyulun əvvəllərində ingilis qüvvələri Naxçıvanı tərk etdilər.[93] Lakin ingilislərin bölgəni bu şəkildə tərk etmələri ermənilər üçün gözlənilməz idi. Erməni hökumətinə yaxşı bəlli idi ki, ingilislərin dəstəyi olmadan "hədiyyə olunan" bölgələri əldə saxlamaq mümkün deyildir.

1918-1921-ci illərdə Böyük Britaniya, ABŞ kimi kənar güclərin dəstəyindən yararlanan daşnak Ermənistanı Naxçıvana iddialarını davam etdirsə də, ancaq naxçıvanlılar Ermənistan hökumətinin bu iddialarını rədd etmiş, türk hərbçilərinin də dəstəyi ilə müqavimət dəstələri yaratmış və buna qarşı çıxmışdılar. Nəticədə ermənilərin zor gücünə, hərbi yolla Naxçıvanı işğal etmək niyyəti də baş tutmamışdı. 1921-ci ilin əvvəllərində Naxçıvanda referendum keçirilmiş, əhalinin 90 faizindən çoxu Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın tərkibində qalmasına səs vermişdi.[94]

1921-ci il martın 16-da Moskvada bolşevik Rusiyası və Türkiyə Böyük Millət Məclisi hökumətinin nümayəndə heyətlərinin iştirakı ilə aparılan danışıqlardan sonra müqavilə imzalandı. Moskva müqaviləsi Naxçıvanın artıq mövcud olan ərazi statusunu təsbit etdi və Naxçıvana Azərbaycan protektoratı altında muxtariyyət verilməsini müəyyənləşdirdi.[95]

Dissertasiyanın **"Nəticə"** hissəsində "XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın Naxçıvan və İrəvan bölgələrinə ermənilərin ərazi iddiaları"nın tədqiqi ilə bağlı alınan nəticələr ümumiləşdirilmişdir.

**Tədqiqatdan aşağıdakı nəticələrə gəlinir:**

1. Ermənilərin Naxçıvan və İrəvana iddialarının meydana çıxması birbaşa olaraq imperialist dövlətlərin Osmanlı dövlətini parçalamaq

---

[92]Hovannisian, R.G. The Republic of Armenia, the first year, 1918-1919 // – Los Angeles: – University of California Press, Volume I, Berkeley, – 1971. – p. 237.
[93] Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. - Naxçıvan: Əcəmi, – 2010. – s.14.
[94]Начальнику Дарашамского участника // Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi, Fond №1, siyahı № 3, iş № 13, 93 v., vərəq – 79.
[95]Документы внешней политики СССР / – Москва: Политиздат, – 1959, т.3. – с. 598-599.

üçün ortaya atdıqları "Şərq məsələsi" və "Erməni məsələsi" ilə birbaşa bağlı olmuşdur [12].

2. "Erməni məsələsi"nin meydana çıxması təbii milli inkişaf prosesindən daha çox, böyük dövlətlərin, xüsusən Britaniya, Fransa və çar Rusiyasının imperialist məqsədlərinin nəticəsi olmuşdur. Bu mənada götürdükdə məqsəd ermənilərdən Osmanlı dövlətinə qarşı istifadə etmək olmuşdur [5].

3. Qafqaza qonşu imperiyaların ərazilərindən köçürülən və gələn ermənilər bölgəyə yalnız yeni sosial və iqtisadi problemləri deyil, həm də terroru və cinayətkarlığı gətirmişdilər. Nəticədə bütün Qafqaza olduğu kimi Naxçıvan və İrəvan bölgələrinə də erməni köçləri XIX əsr boyunca və XX əsrin əvvəllərində davam etmiş, kütləvi köçürülmə nəticəsində Rusiya imperiyası etnodemoqrafik şəraiti əsaslı surətdə dəyişdirə bilmişdi [15].

4. Təhlillər və tarixi mənbələrdəki faktlar təsdiqləyir ki, ermənilər Qafqaz Azərbaycanına indiki İran və Türkiyənin ərazilərindən köçürülmüş, İrəvan və Naxçıvan xanlıqları ərazisində müvəqqəti, az bir zaman içində yaradılmış "Erməni əyalətində" yerləşdirilmiş və tezliklə əzəli Azərbaycan torpaqlarını mənimsəmiş, tarixi şəraitdən istifadə edərək tarixdə heç vaxt mövcud olmayan dövlətlərini yaratmışlar. XX əsrin əvvəllərində ermənilər artıq İrəvan bölgəsində say etibarı ilə üstünlüyü ələ keçirmiş və öz ərazi iddialarını və dövlətçilik ideyalarını gerçəkləşdirmək üçün fürsət axtarmışlar. Beləliklə, XX əsrin əvvəllərində ermənilər heç vaxt mövcud olmadıqları ərazilərdə, xüsusən Azərbaycanın İrəvan bölgəsində – tarixi, Qərbi-Azərbaycan ərazisində ilk dəfə olaraq daşnak Ararat Respublikası qurdular [18].

5. Ermənilərin millətçi şüurlarının məhsulu olan xəyali "Böyük Ermənistan"ın tərkib hissəsi kimi görmək istədikləri Naxçıvan heç vaxt erməni ərazisi olmamışdır. Rusiya XIX əsrin əvvəllərində Şimali Azərbaycanı işğal etdikdən sonra erməniləri bu bölgələrə, xüsusən Naxçıvana da kütləvi surətdə köçürməklə Qafqazda, Azərbaycanda "Böyük Ermənistan" planının yerinə yetirilməsi yolunda növbəti addımlar atmışdı [14].

6. Bütün dünyada yaşadıqları ərazilərdə separatçılıq fəaliyyətinə üstünlük verən ermənilər Naxçıvanı Ermənistana birləşdirmək üçün

bütün məkrli və iyrənc vasitələrdən istifadə edirlər. Saxta tarix yaradıcılığı ilə məşğul olan erməni "tədqiqatçıları", ideoloqları öz əsərlərində yalançı erməni mənbələrinə əsaslanaraq yeni saxta mənbələr yaradaraq Naxçıvanı erməni ərazisi kimi təqdim edir, dünya informasiya vasitələrində saxta məlumatlar yayır, Qars müqaviləsinin ləğv edilməsinə çalışır, Naxçıvanı heç olmazsa mübahisəli əraziyə çevirməyə cəhd edirlər [16].

7. Bütün təbliğati fəaliyyətə baxmayaraq, İrəvan bölgəsindən fərqli olaraq Naxçıvan və ətraf bölgələrə olan əsassız ərazi iddiaları gerçəkliyə çevrilməmişdir. Ermənilər I Dünya müharibəsində Naxçıvana iddia edə bilmədilər, çünki müharibə müddətində Naxçıvan Osmanlı Türkiyəsinin nəzarəti altında olmuşdur. Ermənilər I Dünya müharibəsində Osmanlı və onun müttəfiqlərinin məğlubiyyəti nəticəsində yaranmış əlverişli şəraitdən istifadə edərək Naxçıvana hücumlarını davam etdirdilər. İngilis və amerikalıların köməyi ilə Naxçıvanı öz idarəçiliyinə keçirməsinə cəhd edən tarixdə birinci erməni dövləti olan daşnak Ararat Respublikası etnik təmizləmə, soyqırım və deportasiyalardan və digər vandal üsullardan istifadə edərək öz ərazilərini genişləndirməyə çalışmışdır. Lakin Naxçıvan əhalisinin qəhrəmanlığı, AXC hökumətinin siyasi-hərbi, iqtisadi və mənəvi yardımı ilə daşnak quldur hərbi dəstələrini ölkədən qovmağa nail olmuş, Azərbaycanın əbədi, əzəli, ayrılmaz tərkib hissəsi kimi qalmış və indi də mövcud olmaqdadır [17].

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı elmi məqalələr nəşr olunmuşdur:**

1. Birinci Dünya harbi zamanı Almanya'nın Kafkasya politikalarında Bakü meselesi // Ağrı İbrahim Çeçen Üniversiteti, Nahçıvan ve doğu Anadolu Abideleri Uluslararası Sempozyumu (Dünü, Bugünü ve Yarını). – SAGE yayıncılık ve Tic.Ltd. Şti, – 2016. – s. 306-312.

2. XX əsrin əvvəllərində ABŞ, İngiltərə, Almaniya və Rusiyanın Azərbaycanda möhkəmlənmək uğrunda mübarizəsi // NDU-nun Elmi əsərləri, – Naxçıvan: Qeyrət, – 2016. №6 (75), – s. 27-32.

3. "Şərqi Ermənistan" mifi və ermənilərin uydurma ərazi iddiaları // NDU-nun Elmi əsərləri, – Naxçıvan: Qeyrət, – 2017. №6 (87), – s. 3-7.

4. Qərbi Azərbaycan, yoxsa “şərqi Ermənistan” // Tarix və onun problemləri, – Bakı: Bakı Universitetinin nəşriyyatı, – 2018. № 1, – s. 80-85.

5. XIX əsrin sonu XX əsrin əvvəllərində ermənilərin əsassız “Türkiyə Ermənistanı” ərazi iddialarının iflası // NU-nun Elmi əsərləri, – Naxçıvan, – 2018. № 1(6), – s. 236-244.

6. Попытка армян создать государство в Западном Азербайджане в начале хх века // Бюллетень науки и практики, – 2018. № 7 (июль), – с. 528-534.

7. XX əsrin əvvəllərində ermənilərin uydurma ərazi iddiaları və onun mahiyyəti // NDU-nun Elmi əsərləri, – Naxçıvan: Qeyrət, – 2018. №2 (75) (I cild), – s. 23-30.

8. Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsi // Ümummilli Lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın materialları, – Naxçıvan, – 2018. – s. 14-17.

9. “Территориалыная политика Чарской России и советской власти на Южном Кавказе в начале XX века” // Nауковий Высник, – Одесса, – 2018. №11 (263), – с. 231-239.

10. XX əsrin əvvəllərində ermənilərin Naxçıvanla bağlı iddiaları və bu iddiaların iflasa uğraması // NDU-nun Elmi əsərləri, – Naxçıvan, – 2019. №2 (99) (I cild), – s. 9-12.

11. Erməni əyalətinin yaradılması ermənilərin Azərbaycana əsassız ərazi iddiaları layihəsinin tərkib hissəsi kimi // Qafqazşünasların II beynəlxalq forumu, – Bakı, – 2019. – s. 378-384.

12. XIX əsrin sonu XX əsrin əvvəllərində ermənilərin Osmanlı imperiyasına əsassız ərazi iddialarının yaranmasının tarixi siyasi səbəbləri // Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, – Bakı, – 2019. – s. 135-147.

13. Naxçıvanın Muxtariyyət statusunun qorunmasında Heydər Əliyevin rolu // NDU-nun Elmi əsərləri, – Naxçıvan: – 2020. №2 (103), – s. 16-19.

14. Los intentos de armenización de Nakhchivan por la Rusia zarista: [electronic resource] / – Meksika: – 2021. URL:https://www.dilemascontemporaneoseducacionpoliticayvalores.com/index.php/dilemas/article/view/2615/2651.

15. Çar Rusiyasının ermənipərəst siyasəti və ermənilərin Naxçıvana köçürülməsi prosesi // 3rd international conference on innovative studies of contemporary sciences, Tokyo: – 19 fevral, – 2021. – s. 655-662.

16. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana qarşı ermənilərin ərazi iddiaları // III Uluslararası Ege Sosyal ve Beşeri Bilimler Sempozyumu, – İzmir: – 12-13 mart, – 2021. – s. 153-159.

17. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin iclas protokolları erməni vəhşiliyini öyrənən mənbələrdən biri kimi // NMİ Elmi əsərləri, – Naxçıvan: NMİ-"Məktəb", – 2021. – s. 110-113.

18. XIX əsrin sonunda Qafqaza erməni köçünün səbəb və nəticələri // Cənubi Qafqazda ərazi-sərhəd problemləri: Qars müqaviləsindən Şuşa Bəyannaməsinə, Respublika elmi konfransı, – Bakı: – 2021. – s. 101-102.

Dissertasiyanın müdafiəsi 28 oktyabr 2022-ci il tarixdə saat $10^{00}$-da AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ___ sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.09.2022
Kağızın formatı: 60/84, 16/1
Həcm: 44.476 işarə
Tiraj: 100 nüsxə